## Audit

*Mehdi Babayev*
«Professional MÜHASİB» jurnalının baş redaktoru, sərbəst auditor
Kütləvi informasiya vasitələrində auditlə bağlı aktual məsələlər

### Dövri mətbu nəşrlərin (KİV məhsullarının) satışdan geri qaytarılması, saxlanması, ləğv edilərək silinməsi və vergitutmaya təsiri ilə bağlı əməliyyatların auditi

*əvvəli ötən sayımızda*

Mətbuat orqanlarının müəyyən tirajla istehsal etdiyi dövri mətbu nəşrlər, yəni qəzet və jurnallar satışdan geri qayıtmaya məruz qalan məhsullardır. Digər istehlak məhsullarındın fərqli olaraq, dövri mətbu nəşrlərin vahid keyfiyyət göstəricisi və ya standartı olmur və olması mümkün deyildir. Dövri mətbu nəşrin yüksək tirajla satılmasına xidmət edən amil həmin mətbu nəşrdə dərc edilən və oxucu tələbatına cavab verən informasiya xarakterli məlumatların və müəllif məqalələrinin oxunaqlığıdır. Digər tərəfdən də cəmiyyətdə baş verən sosial, iqtisadi, siyasi və ictimai proseslər dövri mətbuatın satışına təsir edə bilər. Bütün bu xarakterik xüsusiyyətlər dövri mətbu nəşrlərin tirajının tam və ya böyük hissəsinin satılacağına ümid yaratmır. Ona görə də bu məhsullar obyektiv səbəblərə görə satışdan geri qayıtmaya «məhkum» oluna bilər.

KİV redaksiyaları istehsal etdiyi mətbu nəşrlərini oxuculara (alıcılara) çatdırılması (satılması) üçün mətbuat yayımı ilə məşğul olan firmalara təqdim edir və bununla da öz məhsullarının komisyon qaydada satışını həyata keçirirlər. Mətbuat yayımı firmaları redaksiyalara satış xidmətləri göstərən, yəni komisyon qaydada mal satan kimi çıxış edir. Mətbuat yayımı firmaları öz yayım obyektlərində (qəzet köşklərində) satılmayan və ya satılmayaraq geri qəbul edilən dövri mətbu nəşrləri redaksiyaya qaytarmalı olur. Qaytarılan məhsullar müvafiq sənədlərə (qaimə, təhvil-qəbul aktı) əsasən redaksiya tərəfindən təhvil alınır.

Audit zamanı satışdan geri qayıdan KİV məhsullarının hərəkətinə nəzarət etmək üçün həmin məhsulların mənəvi dəyərini itirmiş və qiymətdən düşmüş, yaxud tam yararsız mal kimi mühasibat uçotunda və KİV-in anbarında ayrıca uçota alınmasına diqqət yetirilməlidir. Vergi Məcəlləsinin 139.3-cü maddəsinə görə, «əmtəə-material ehtiyatlarının uçotunu apararkən vergi ödəyicisi mənəvi cəhətdən köhnəlmiş və ya dəbdən düşmüş qüsurlu malın, yaxud digər səbəblər üzündən istehsalına çəkilmiş xərclərdən (satınalma qiymətindən) yüksək qiymətə satıla bilməyən malın (məhsulun) dəyərini onların satıla biləcəyi qiyməti əsas götürməklə qiymətləndirə bilər». Deməli, KİV redaksiyası satış dövriyyəsindən geri qayıdan KİV məhsullarını satıla biləcəyi qiyməti əsas götürməklə qiymətləndirə və yenidən qiymətləndirə bilər. Ancaq mövcud vəziyyətdə demək olar ki, satışdan geri qayıdan KİV məhsulları sonradan satılmır və onların istifadəyə tam yararsız hala düşdüyü üçün yenidən qiymətləndirilməsinin heç bir əhəmiyyəti yoxdur. Hər bir halda, satışdan geri qayıdan KİV məhsulları mümkün satıla biləcək bazar qiymətində qiymətləndirilməklə uçota alınmalıdır. Qiymətləndirmədən yaranan mənfi fərq KİV-in təsərrüfat fəaliyyətinin nəticələrinə aid edilir.

KİV məhsullarının satışdan geri qayıtması faktını «təbii itki» kimi də hesab etmək olar. Bunun üçün obyektiv səbəb yaranır. Yəni növbəti tirajın yayımlanması əvvəlki tirajda gedən informasiyaların «köhnəlməsi»nə gətirib çıxarır və bu amilin baş verməsi təbii itki halı yaradır. Ancaq elə tirajlar ola bilər ki, həmin tirajda uzun müddət cəmiyyətin diqqət mərkəzində qala bilən informasiyaların və ya məqalələrin yayımlanması, hətta növbəti tirajının artıq satışda olmasına baxmayaraq, ilkin qiymətində satılmasına təminat verər. Belə halların baş verməsi KİV redaksiyalarına satışdan geri qayıdan KİV məhsullarının bazar qiymətinin müəyyənləşdirilməsində diqqətli olmağı tələb edir.

KİV məhsullarının satış dövriyyəsindən geri qayıtmasını təsdiq edən sənədlər aşağıdakılar ola bilər:

· Səyyar satışı təşkil edən KİV işçisinin (icraçının) satışdan geri qayıdan malların mərkəzi anbardara təhvil verilməsini təsdiq edən təhvil-qəbul aktı (yaxud daxili qaimə);

· Vəkalət alanın (KİV məhsullarının yayılmasını komisyon qaydada həyata keçirən fiziki və ya hüquqi şəxsin - yayım firmasının) satışdan geri qayıdan KİV məhsullarının KİV redaksiyasına qaytarılmasını (verilməsini) təsdiq edən təhvil-qəbul aktı (yaxud daxili qaimə).

Satış dövriyyəsindən geri qayıdan KİV məhsulları adətən aşağıdakı formada redaksiyanın balansından silinir:

· Mətbu nəşrin reklam edilməsi məqsədilə oxuculara pulsuz paylanılması;

· Sponsorun məqsədinin həyata keçməsinə xidmət etmək üçün oxuculara pulsuz bağışlanılması;

· Ucuz qiymətə digər formada xammal kimi başqa istehlakçılara satılması;

· İstifadəyə tam yararsız olduğuna görə aktlaşdırılmaqla silinərək məhv edilməsi.

Yuxarıda göstərilən əməliyyatların hər biri özunəməxsus qaydada rəsmiləşdirilməlidir.

Mənfəət vergisinin məqsədləri üçün satışdan geri qayıdan KİV məhsulları gəlirdən çıxılan xərclərə aid edilmir. Çünki Vergi Məcəlləsinin 108-ci maddəsində yalnız gəlirin əldə edilməsi ilə bağlı xərclərin gəlirdən çıxılması nəzərdə tutulub.